# 2018-ci il, birinci rüb: Qəbələdə bütün sahələrdə uğurlu inkişaf var

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat

## MƏRUZƏSİ

(Əvvəli 2-ci səhifədə).

Tikinti Şirkəti MMC-də 55 nəfər, Qəbələ Yaşıllaşdırma MMC-də 150 nəfər müvafiq işlə təmin olunmuşdur.

"Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2016-cı il tarixli, 1941 nömrəli Sərəncamının icrası ilə əlaqədar müvafiq işlər davam etdirilmiş, rüb ərzində öz bizneslərinə başlamaları üçün tələb olunan aktivlərlə təmin olunmuş 16 nəfər vətəndaşın istifadəsində olan aktivlər onların mülkiyyətinə verilmişdir. Onlardan 8 nəfər ətlik-heyvandarlıqla, 4 nəfər südlük-heyvandarlıqla, 1 nəfər arıçılıqla, 1 nəfər kiçik qəlyanaltı sahəsində, 1 nəfər kompüter təmiri, çap və poliqrafiya sahəsində, 1 nəfər avtomobillərin təmiri sahəsində fəaliyyət göstərir.

Özünüməşğulluq proqramının növbəti mərhələsində iştirak etmək üçün müraciət etmiş vətəndaşlardan 125 nəfərin müraciəti araşdırılmış, onlardan 100 nəfərin həyətyanı sahəsinə və biznes ideyasını reallaşdırması üçün malik olduğu digər resurslara baxış keçirilmişdir. Müraciəti araşdırılmış vətəndaşlardan 30 nəfər "Öz biznesinə başla və təkmilləşdir" təlimlərinə cəlb edilmiş, onlardan 29 nəfər bu təlimləri uğurla başa vurmuşdur. Hazırda təlimləri bitirmiş vətəndaşların biznes planlarının müdafiəsinin təşkili istiqamətində işlər həyata keçirilir. Təlimləri bitirmiş vətəndaşlardan 24 nəfər kənd təsərrüfatı, 2 nəfər istehsal, 3 nəfər xidmət sahəsində fəaliyyət göstərmək arzusundadır.

Rayonun yerli gəlirləri 2018-ci birinci rübünün yekunlarına görə 2.909,9 min manat proqnoza qarşı 3.344,2 min manat (114,9 faiz) və ya 434,3 min manat çox yerinə yetirilmişdir. Yerli gəlirlərə aid olan məbləğ 1.336,8 min manat proqnoza qarşı 1.536,5 min manat (114,9 faiz) və ya 199,7 min manat çox, yerli xərclər 1.320,4 min manat proqnoza qarşı 1.255,9 min manat (95,1 faiz) və ya 64,5 min manat az icra olunmuşdur. Gəlirlərin mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsi 1.566,2 min manat proqnoza qarşı 1.801,2 min manat (115,0 faiz) və ya 235,0 min manat çox icra olunmuşdur.

Yerli gəlirlər üzrə proqnozlaşdırılmış 10 növ gəlirdən 4-ü üzrə proqnoz tapşırıqlar kəsirlə yerinə yetirilərək qeyd olunan gəlirlər üzrə büdcəyə 62,4 min manat az vəsait daxil olmuşdur. Digər 6 növ gəlirlər üzrə 262,1 min manat çox vəsait daxil olaraq rayonun gəlirləri ümumilikdə 199,7 min manat çox yerinə yetirilmişdir.

Yerli gəlirlər üzrə ümumilikdə daxil olmuş 3.344,2 min manat vəsaitdən 1.536,6 min manatı rayonun yerli gəlirlərinə, 6,4 min manatı qanunamüvafiq qaydada "Avtomobil yolları" Məqsədli Büdcə Fonduna, 1.801,2 min manatı isə mərkəzləşdirilmiş gəlirlərə aid edilmişdir.

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

Rüb ərzində bütün növ istehlakçı qruplar tərəfindən 30.436,3 min kvt/saat elektrik enerjisi istehlak edilmiş, 2.520,2 min manata qarşı 2.201,2 min manat vəsait toplanaraq yığım planı 87,3 faiz yerinə yetirilmişdir. Həmin göstərici büdcə təşkilatları üzrə 47,9 faiz, dövlət müəssisələri üzrə 68,8 faiz, ticarət xidməti üzrə 93,2 faiz, özəl sənaye üzrə 87,1 faiz, əhali qrupu üzrə isə 91,4 faiz olmuşdur.

10/6 kV-luq hava xəttinin 10,0 km məsafəsində əsaslı və cari təmir işləri aparılmışdır. 10 kV-luq Bum, Vəndam elektrik verilişi xətlərində 42 ədəd fiziki köhnəlmiş ağac dayaq metal dayaqlarla əvəzlənmiş, 8.500 metr məsafədə fiziki köhnəlmiş naqillər dəyişdirilmişdir. 5 ədəd 10/0,4 kV-luq transformator yarımstansiyalarında 4 ədəd 400 A-lik, 1 ədəd 250 A-lik ayırıcı quraşdırılmışdır. Qəbələ Paylayıcı Şəbəkə Sahəsinin xidməti ərazisində 6,5 km məsafədə 0,4 kV-luq fiziki köhnəlmiş və istismara yararsız naqillər yenilənmiş, 189 ədəd fiziki köhnəlmiş 0,4 kV-luq ağac dayaqlar yeni müasir tipli dəmir beton və dəmir dayaqlarla, 17 ədəd transformator yarımstansiyasının 0,4 kV-luq çıxışında zədəli kabellər yenisi ilə əvəz edilmişdir. Əhali sektorunda 96 ədəd yeni sayğac quraşdırılmışdır.

Təbii qaz istehlakçıları tərəfindən 17.843,2 min kub/metr təbii qaz istehlak edilmiş, 2.358,8 min manata qarşı 1.941,3 min manat vəsait toplanaraq ümumi yığım məbləği 82,3 faiz olmuşdur. Həmin göstərici əhali sektoru üzrə 89,5 faiz, büdcə təşkilatları üzrə 34,6 faiz, sənaye, kommersiya və digər təşkilatlar üzrə 90,8 faiz, kommunal təşkilatlar üzrə isə 21,4 faiz təşkil etmişdir.

Rüb ərzində 152 yeni abonentə təbii qaz verilərək, əhali abonentlərin ümumi sayı 18.249-a çatdırılmışdır. Dövlət proqramı üzrə Azəriqaz İB-nin sifarişi ilə 84 abonent, fərdi qaydada 68 abonent, ümumilikdə 152 əhali abonenet və 3 qeyri əhali abonenet qazla təmin olunmuşdur.

Qəbələ Su-Kanal İdarəsi tərəfindən Qaraçay və Duruca su mənbələrində yerləşən anbarlar lil və qumdan təmizlənmiş, cari təmir işləri görülmüşdür. Şəhərin Nizami Gəncəvi, Heydər Əliyev, İmadəddin Nəsimi küçələrində və mərkəzi kanalizasiya xətlərində təmirbərpa işləri aparılmış, axıntıların qarşısı alınmışdır. Hazırda şəhərin su və kanalizasiya təchizatının yenidən qurulması sahəsində ikinci mərhələ üzrə işlər davam etdirilir. Layihənin icrası ilə əlaqədar indiyədək müxtəlif diametrli borularla 12 km su xətləri, 11 km kanalizasiya xətləri çəkilmiş, 650 evə su və kanalizasiya birləşmələri verilmiş, 600 ədəd su sayğacı quraşdırılmışdır. Rüb ərzində 85,5 min manat dəyərində su və kanalizasiya xidməti göstərilmiş, həmin məbləğin 88,4 faizi yığılmışdır. Bu göstərici əhali sektoru üzrə 94,3 faiz, büdcə təşkilatları üzrə 63,4 faiz, kommersiya və digər təşkilatlar üzrə 95,4 faiz təşkil etmişdir.

Qəbələ Rayon Mənzil İstismar və Kommunal Müəssisələr Kombinatı rüb ərzində şəhər təsərrüfatına 87,3 min manat, ictimai yaşayış binalarına 12,4 min manat, idarə və müəssisələrə 21,4 min manat, kommersiya obyektlərinə 3,2 min manat, fərdi təsərrüfatlara 1,7 min manat olmaqla cəmi 126,0 min manat dəyərində təmizlik və digər kommunal xidmətləri göstərmişdir.

Qəbələ Rayon 10 №-li Yol İstismarı MMC tərəfindən rüb ərzində 240,7 min manatlıq cari təmir və yolların saxlanması işləri görülmüşdür.

Qəbələ Telekommunikasiya Qovşağı 328,7 min manat taarif gəliri proqnozuna qarşı 333,2 min manat gəlir əldə etmişdir. Müəssisədə proqnoz tapşırığa 101,4 faiz əməl olunmuşdur. Ümumilikdə rayon üzrə 1 şəhər EATS-i (3.614 nömrə), 23 kənd EATS-i (8.320 nömrə), 3 mini EATS-i (96 nömrə) fəaliyyət göstərir ki, həmin EATS-rin ümumi montaj tutumu 12.030 nömrə təşkil edir. 2 kənd (6 nömrə) peyk rabitəsi ilə təmin olunub. Hazırda rayon üzrə hər 100 təsərrüfata düşən telefon abonentlərinin sayı orta hesabla 50 ədəd təşkil edir. Rüb ərzində şəhər və kənd əhalisinə 123 ədəd telefon çəkilmiş, 484 ədəd internet qoşulması verilmişdir. Genişzolaqlı internet xidmətindən istifadə edən abunəçilərin sayı 5.664 nəfər olmuşdur. Şəhər telefon şəbəkəsində 75 ədəd istismara yararsız rabitə dirəyi dəyişdirilmiş və yeni dəmir dirəklərlə əvəz edilmişdir. Şəhərin Gənclik küçəsində 50 nömrə üçün yeni şəbəkə tikilmiş, Heydər Əliyev prospektində 30-a yaxın zədəli xətlər təmir olunmuşdur. Həzi Aslanov, 28 May küçələrində və Zarağan kənd xətt şəbəkəsində zədəli kabellər təmir edilmişdir. Nic və Bum qəsəbə EATS-nin xətt şəbəkəsində cari təmir işləri davam etdirilir. Mıxlıqovaq kəndinə yeni asfalt yolun çəkilişi ilə əlaqədar yol kənarı rabitə dirəklərinin dəyişdirilməsi üçün "Aztelekom" MMC-yə müraciət edilmişdir.

Azərpoçt MMC-nin Qəbələ filialı 82,0 min manata qarşı 84,3 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığı 102,8 faiz yerinə yetirmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 1,2 min manat artım olmuşdur.

Dövlət Sosial Müdafiə Fondunun Qəbələ rayon şöbəsində rüb ərzində gəlirlər üzrə proqnozda nəzərdə tutulmuş 1.271,2 min manata qarşı 1.511,0 min manat məcburi dövlət sosial sığorta haqları toplanaraq, proqnoz tapşırığa 118,9 faiz əməl olunmuşdur. Proqnozun icrası müvafiq olaraq büdcə təşkilatları üzrə 392,4 min manata qarşı 430,5 min manat və ya 109,7 faiz, qeyri-büdcə təşkilatları üzrə isə, 878,8 min manata qarşı 1.080,5 min manat və ya 122,9 faiz olmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə ümumilikdə 430,9 min manat və ya 39,9 faiz çox məcburi dövlət sığorta haqları toplanmışdır. Rüb ərzində 205 sığortaedən qeydiyyata alınmışdır ki, bunlardan 41 nəfər hüquqi, 164 nəfər fiziki şəxs olmuşdur. 1 aprel 2018-ci il vəziyyətinə şöbə üzrə 11.472 pensiya işi üzrə 11.724 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Hesabat dövründə pensiyaçılara ümumilikdə 6.404,5 min manat pensiya, 64,5 min manat məcburi dövlət sığorta haqları hesabına müavinətlər ödənilmiş, orta aylıq pensiya məbləği 2.126,1 min manat, bir pensiya işi üzrə isə orta aylıq pensiya məbləği 185 manat 33 qəpik təşkil etmişdir. Xərclənmiş vəsaitin 5.230,0 min manatı subsidiyalar, digər hissəsi isə yerli daxilolmalar hesabına olmuşdur.

Hazırda şöbədə əmək pensiyalarından əlavə 4.352 hərəkətdə olan sosial müavinət, 527 təqaüd işi vardır. Həmin müavinətlərin və təqaüdlərin ödənilməsi üçün tələb olunan vəsaitin orta aylıq məbləği 394,3 min manat təşkil edir.

Qəbələ Rayon Suvarma Sistemləri İdarəsi tərəfindən rüb ərzində rayon ərazisində kənd təsərrüfatının suvarma suyu ilə təminatı üçün suvarma kanalları 91,5 min kub/metr lildən, daşqın və selə qarşı mübarizə məqsədilə 137,2 min kub/metr çay məcrası daş və qumdan təmizlənmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

Hər il olduğu kimi 2018-ci ilin birinci rübü ərzində rayonda tikinti-quruculuq işləri uğurla davam etdirilimişdir.

Rüb ərzində Qəbələ şəhərində 120 uşaq yerlik uşaq bağçasının, Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx kəndlərarası avtomobil yolunun tikintisinə başlanılmışdır. Gömrük Akademiyasının inzibati binasında Atçılıq kompleksində və Qəbələ şəhərinin içməli su və kanalizasiya sisteminin yenidənqurulması keçid obyektlərində tikinti işləri davam etdirilmişdir. Bununla yanaşı şəhərin Muxtar Abduyev küçəsi 75 ünvanında beşmərtəbəli və Heydər Əliyev prospekti 6 və 19 ünvanlarındakı ikimərtəbəli yaşayış evlərində əsaslı təmir işlərinə başlanılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 9 mart 2018-ci il tarixli, 3775 nömrəli Sərəncamına əsasən Vəndam qəsəbəsində 360 şagirdyerlik 2 nömrəli tam orta məktəb binasının, Qaradeyn kəndində 80 şagirdyerlik modul tipli tam orta, Laza kəndində 80 şagirdyerlik modul tipli ümumi orta, Şəfili kəndində 20 şagirdyerlik modul tipli ibtidai, Zərgərli kəndində 56 şagirdyerlik modul tipli ibtidai məktəb binalarının tikintisi planlaşdırılmışdır. Ölkə başçısının 17 mart 2017-

(Ardı 5-ci səhifədə).